# BÖLGƏ İQTİSADİYYATI MÜASİR İNNOVATİV TEXNOLOGİYALAR ƏSASINDA QURULUR

***Əvvəlki illərdə olduğu kimi, cari ildə də Azərbaycanda dinamik inkişaf tempi qorunub saxlanılmış, qarşıya qoyulan bütün layihələr uğurla reallaşmışdır. İlin doqquz ayı ərzində ölkə iqtisadiyyatı, yəni ümumi daxili məhsul 0,8 faiz, qeyri-neft sənayesi 10,5 faiz artmışdır. İnflyasiya 2,6 faiz, əhalinin gəlirləri isə 9,5 faiz artmışdır. Ölkənin valyuta ehtiyatları artaraq 45 milyard dollara çatmışdır. Bu müddət ərzində ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulmuşdur ki, bunun da 5,6 milyard dolları qeyri-neft sektoruna yönəldilmişdir.***

Regionların inkişafında da nəzərəçarpacaq irəliləyişlər baş vermiş, aqrar bölmə üzrə planlaşdırılan tədbirlər və islahat proqramları vaxtında icra olunmuşdur. İnkişaf və yüksəliş dalğası Quba rayonundan da yan keçməmişdir. Cari ilin oktyabr ayının 11-də bu rayona səfər edən ölkə prezidenti cənab İlham Əliyev burada görülən işləri yüksək qiymətləndirmiş, bir sıra yol-infrastruktur, sosial-mədəni, istehsal və emal müəssisələrinin açılışını reallaşdırmışdır.

Quba rayonu həm turizm cəlbediciliyi, həm də kənd təsərrüfatı, xüsusilə də meyvəçilik potensialı baxımından geniş imkanlara malikdir. Bölgə iqtisadiyyatının ixtisaslaşdırılması strukturunda bu iki istiqamət rayon üçün ön mövqeyə çıxarılıb. Dövlət bu sahədə öz dəstək və köməyini əsirgəmir. Bu dəstək ölkə prezidentinin bölgələrə səfəri zamanı açılışını etdiyi onlarla iri layihələrdə real təcəssümünü tapır.

Quba rayonuna səfəri çərçivəsində cənab Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutunun əsaslı təmirdən sonra fəaliyyəti ilə tanış olublar. 1926-cı ildən fəaliyyət göstərən rayonun Zərdabi qəsəbəsində yerləşən bu institutda 59 nəfər alim, elmi işçi çalışır. Cənab prezidentin 2015-ci ildə imzaladığı sərəncam əsasında burada geniş yenidənqurma işləri aparılmış, kommunal sistem yenilənmiş, yardımçı binalar və təsərrüfatlar yaradılmışdır. İnstitutda, həmçinin müasir avadanlıqlarla təchiz olunmuş torpaq, bitki və su analizləri ilə məşğul olan aqroekologiya və analiz, bitkilərin mikroxlonal çoxaltma üsulu ilə artırılması laboratoriyası yaradılmış, alınmış bitki sortlarının böyüdülməsi və uyğunlaşdırılması məqsədilə xüsusi istixana-tingçilik kompleksi tikilib istifadəyə verilmişdir. İnstitutda yaradılan yeni sahələrdə 35 əlavə iş yerləri açılıb. **Burada 75 hektar ərazidə Lənkəran Çayçılıq filialı, 19 hektar ərazidə Abşeron təcrübə stansiyası, 50 hektarda Qəbələ, 97 hektarda isə Göyçay dayaq məntəqələri yerləşir.** Bundan başqa, Zaqatala dayaq məntəqəsi, Zərdabi elmi-təcrübə stansiyası və Quba yardımçı təcrübə stansiyası da institutun balansına daxildir.

Əsas missiyası məhsuldar meyvə sortlarının yaradılması, onların yüksək texnologiyalar əsasında becərilməsi və təsərrüfatlarda yayılması olan institutun 50 hektar ərazisində 2017-2018-ci illərdə yeni bağlar salınıb. Son illər ərzində institut Almaniyanın, Çinin, Fransanın və digər ölkələrin qabaqcıl meyvə və seleksiya üzrə elmi-tədqiqat mərkəzləri və universitetləri ilə geniş əməkdaşlıq əlaqələri qurub. Bütün bunlar elmi və texnoloji yeniliklərin Azərbaycana gətirilməsində, müasir standartlara uyğun kadrların hazırlanmasında müstəsna əhəmiyyət kəsb edir.

**Qubaya səfəri zamanı dövlət başçısına yeni layihə – "Kənddən şəhərə" layihəsi haqqında məlumat verilib.** Layihə çərçivəsində müasir tipli yarmarkaların, pərakəndə satış mərkəzlərinin, online sifariş xidmətlərinin yaradılması və tətbiqi nəzərdə tutulur. Layihənin icrası nəticəsində sahibkarlıq subyektlərinin birbaşa bazarlara çıxışı təmin ediləcək, həmçinin şəhər əhalisinə kənd təsərrüfatı məhsullarının innovativ yollarla və əlverişli qiymətlərlə çatdırılması problemi öz həllini tapacaq. Layihənin struktur bölməsi olaraq Aqrar Birja yaradılacaq ki, burada satıcı-alıcı əlaqələrinin funksional şəkildə qurulması mümkün olacaq, həm də kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimlənməsi vahid bazadan idarə olunacaq. Bu tədbirlərin həyata keçirilməsi yaxın müddət ərzində aqrar bölmənin inkişafına öz təsirini göstərəcək, eyni zamanda kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan yeni zümrə sahibkarlıq subyektlərinin də işini asanlaşdıracaq.



Qubada, həmçinin ölkə başçısının və birinci xanımın iştirakı ilə "Qubaekoaqrar" MMC-nin kənd təsərrüfatı məhsullarının istehsalı zavodu istifadəyə verilmişdir. Öncə qeyd etmək lazımdır ki, Xaçmaz iqtisadi rayonunda ümumi dəyəri 376 milyon manat olan 2624 layihənin maliyyələşdirilməsinə 201 milyon manat güzəştli kredit verilib. Həmin çərçivədə yaradılan istehsal və emal müəssisələri xarici bazarlara çıxış əldə etmişlər. Belə ki, Xaçmaz fındıq emalı zavodu ötən il 2 milyon dollar dəyərində fındıq, Loqistik Mərkəz və meyvə emalı zavodu 500 min dollar dəyərində quru meyvə, Qusar Regional Loqistika Mərkəzi 6,2 milyon dallar dəyərində meyvə ixracı həyata keçirib. Keçən il 186,4 min hektar meyvə bağlarından, ümumilikdə, 955 min ton meyvə tədarük olunub. Məhsulun 29 faizi, əsasən, Rusiya, Ukrayna, İtaliya, İsveçrə və Almaniya olmaqla, qalan məhsullar digər ölkələrə ixrac edilib. Yığılan məhsulun 125,3 min tonu Quba rayonunun payına düşür.

"Qubaekoaqrar" MMC-nin kənd təsərrüfatı məhsulları istehsalı zavodu sutkada 4 ton fındıq və 2 ton quru meyvə istehsal gücünə malikdir. Müəssisədə meyvələrin qurudulması, fındığın qovrulması və qablaşdırılması və alma çipsi xətləri quraşdırılıb. Əhalidən tədarük edilən meyvələr, ilk növbədə çeşidlənir, yuyulur, içlikdən təmizlənir, dilimlənir və xüsusi qaydada qablaşdırılaraq qurudulmaq üçün sobaya yerləşdirilir. Sobada hər bir meyvə növünün xüsusiyyəti nəzərə alınaraq onlar üçün proqnozlaşdırılmış xüsusi rejimdə qurutma prosesi yerinə yetirilir. Müəssisədə tələbata uyğun olaraq, əsasən alma, armud, gavalı, ərik, alça quruları, həmçinin alma çipsi istehsal olunaraq müxtəlif çəkilərdə paketlənir. Meyvə quruları sənaye üsulu ilə istehsal olunduğu üçün dadına, əmtəə nişanına və qablaşdırma səviyyəsinə görə fərqlənir: Azərbaycan brendi altında xarici bazarlara çıxarılan, bu cür məhsullar öz alıcısını tez tapa bilir.

**Fındığın emalı xəttində isə məhsul ilkin olaraq qurudulur, qabıqdan təmizlənir və sonra xüsusi rejimdə sobaya qoyulur. Qovrulmuş fındığın soyuduldugdan sonra müxtəlif çəkilərdə vakuum paketlənməsi prosesi həyata keçirilir, istehsal olunan məhsullar daxili bazarla yanaşı, "Made in Azerbaijan" brendi altında xarici bazarlara, xüsusilə də Rusiya və ərəb ölkələrinə ixrac olunur.**

Zavodun xammala olan tələbatı Quba və ətraf rayonlardan tədarük edilən məhsullar hesabına ödəniləcək. Bu isə öz növbəsində kiçik ailə-fermer təsərrüfatlarının genişlənməsinə və inkişafına müsbət təsir göstərəcək, regionda yeni meyvə bağlarının salınmasına stimul yaradacaq. Sonucda yetişdirilən məhsul zay olmadan, keyfiyyətini itirmədən emal prosesinə cəlb olunacaq. Hazır məhsullar xarici bazarlara çıxarılacaq ki, bu da rayonun iqtisadi imkanlarının artmasına, əhalinin pul gəlirlərinin və rifah halının yüksəlməsinə böyük təkan verəcəkdir.

Açığını etiraf etmək lazımdır ki, sovet sistemi çökdükdən sonra uzun illər meyvəçiliyə maraq həddindən artıq azalmışdı. O vaxtlar bir çox meyvə bağları kəsilib məhv edilirdi, odun materialı kimi istifadə olunurdu. Məhsulun az qala 70-80 faizi zay olub tullanırdı. "Qubanın ağ alması" bazarların piştaxtalarından yoxa çıxırdı. Emal müəssisələrinin, demək olar ki, hamısı öz fəaliyyətini dayandırmışdı.

2004-cü ildən başlayaraq cənab prezidentin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar, qəbul edilən Dövlət Proqramları, bütün sahələrlə bərabər, meyvəçiliyi də güclü inkişaf axarına çıxardı. Dövlət başçısının xüsusi diqqət və qayğısı kənd təsərrüfatı məhsullarının, o cümlədən meyvəçiliyin inkişafına, necə deyərlər, "ikinci nəfəs" verdi.

**Bu gün nəticə göz qabağındadır. Yaxın bir neçə il ərzində daha uğurlu və əlamətdar hadisələrin şahidi olacağıq.**

Sözügedən zavodun xammala olan tələbatının davamlı şəkildə ödənilməsini təmin etmək məqsədilə tutumu 2 min ton olan soyuducu anbar kompleksinin qurulması, mövcud istehsal gücünün 2 dəfə artırılması, cem və mürəbbə istehsalının təşkili və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Ümumi dəyəri 3,6 milyon manat olan investisiya layihəsinin maliyyələşdirilməsinə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kredit ayrılıb və bu layihəyə investisiya təsdiqi sənədi verilib.

İlkin mərhələdə müəssisədə ildə təqribən 2,6 milyon manat dəyərində və ya 1,3 min ton məhsul istehsalı nəzərdə tutulur. Regionlarda bu tipli modern istehsal və emal müəssisələrinin yaradılması Azərbaycanın iqtisadi gücünün və qüdrətinin göstəricisidir. Bu həm də yeni nəsil kiçik və orta sahibkarlıq zümrəsinin yetişməsi üçün real imkanlar açır.

Quba rayonu Azərbaycanın axarlı-baxarlı, dilbər guşələrindən biridir. Bu yerlərə təbiət hər şey bəxş edib – vüqarlı dağlar, zümrüd meşələr, buz kimi bulaqlar...

İyindən, rayihəsindən insanı bihuş edən alma, armud, gavalı bağları, fındıq kolları, qoz ağacları, güllər, çiçəklər tanrının verdiyi bu gözəlliklərə bir ecazkarlıq və təravət əlavə edib. Ona görə də Quba həmişə qonaqlı-qaralıdır...

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**